# NEKROLOQLAR
# НЕКРОЛОГИ
# OBITUARIES

## VASİM MƏMMƏDƏLİYEV



Akademik Vasim Məmmədəliyevin ilahi lütfdən qaynaqlanan istedadı, dərin elmi təfəkkürü, heyrətamiz hafizəsi, yorulmaz pedaqoji fəaliyyəti, əsl ziyalı şəxsiyyətə xas səciyyəvi xüsusiyyətləri təzahür etdirməsi onu fenomen şəxsiyyətlər sırasına daxil etmişdir.

Vasim Məmmədəliyev 1942-ci ildə Bakıda həkim ailəsində anadan olmuşdur. 1959-cu ildə Bakının 113 saylı orta məktəbini bitirib Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olmuş, 1964-cü ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirmişdir. 1964-67-ci illərdə ADU-nun sami dilləri üzrə əyani aspiranturasına daxil olmuş, Tbilisiyə ezam edilərək aspiranturanı orada akademik G.V.Seretelinin rəhbərliyi altında bitirmişdir. Alim 1968-ci ildə "Müasir ərəb, Azərbaycan dillərində və Bağdad dialektində felin zaman formalarının müqayisəli-tipoloji təhlili" mövzusunda namizədlik, 1974-cü ildə isə "Müasir ərəb ədəbi dilinin felin zaman, şəxs və şəkil kateqoriyaları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1981-1991-ci illərdə BDU-nun Şərqşünaslıq fakültəsinin dekanı, 1991-92-ci illərdə BDU-nun humanitar fakültələr üzrə prorektoru vəzifəsində çalışmışdır.

Vasim Məmmədəliyev 1991-ci ildən ömrünün sonunadək BDU-nun Ərəb filologiyası kafedrasının müdiri, eyni zamanda 1993-cü ildən İlahiyyat fakültəsinin dekanı vəzifəsində çalışmışdır. Azərbaycanın və Dağıstan Muxtar Respublikasının əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, İraq Elmlər Akademiyasının, Suriya Quran Elmləri və Ərəb filologiyası Akademiyasının və Misir Ərəb Dili Akademiyasının müxbir üzvü, İslam Əməkdaşlığı Təşkilatının Müsəlman Hüququ Akademiyasının akademiki və Azərbaycanın orada təmsilçisi, İranın Beynəlxalq Əhli-Beyt Assosiasiyası və Türkiyənin Elmi Araşdırmalar Vəqfinin üzvü olmuşdur.

Elm və təhsil sahəsində səmərəli fəaliyyətinə görə "Şöhrət" və "Şərəf" ordenləri, "Yusif Məmmədəliyev" və İran İslam Respublikasının "Şəhriyar" qızıl medalı ilə təltif edilmiş, Prezident təqaüdünə və Heydər Əliyev Fondunun "Qızıl Çinar" beynəlxalq mükafatına layiq görülmüşdür.

Alimin işıq üzü görmüş son biblioqrafiyasına görə, o, bugünədək 41 kitab, 6 tərcümə əsəri, 650-yə yaxın elmi və publisistik məqalə nəşr etdirmiş, 54 fəlsəfə doktoru, 5 elmlər doktoru yetişdirmişdir.

Akademik "Ərəb ədəbi dilində felin zaman, şəxs və şəkil kateqoriyaları", "Bəsrə qrammatika məktəbi", "Kufə qrammatika məktəbi", "Ərəb dilçiliyi" adlı əsərləri ilə ərəb dilçiliyinin ən ümdə məsələlərinin kamil tədqiqatçısı kimi şöhrət qazanmışdır.

Əsas tədqiqat sahəsinin ərəb dilçiliyi olmasına baxmayaraq, onun əsərlərində Şərq filologiyası, Şərq poeziyası, islam tarixi, kəlam, fəlsəfə, təfsir, quranşünaslıq, leksikoqrafiyanın ən mühüm məsələləri tədqiq olunmuşdur və o, bu sahələrdə də qiymətli əsərlərin müəllifidir.

Vasim müəllim geniş diapazonlu, universal biliklərə sahib ərəbşünas kimi formalaşmışdır.

Alim ilk dəfə olaraq ərəb qrammatika məktəblərini sistemli şəkildə tədqiq etmiş, məşhur Bağdad, Əndəlus, Bəsrə, Kufə, Misir qrammatiklərinin əsaslandıqları nəzəri və metodoloji prinsipləri yüksək səviyyədə öyrənmişdir. Bir çox qədim ərəb mənbələrindən faydalanan alim ərəb dilçilik elminin əsas inkişaf yollarını izləməklə, bu mühüm qrammatika məktəblərinin təlimlərini müqayisəli şəkildə şərh etmişdir. V.Məmmədəliyev özünün "Ərəb dilçiliyi" adlı fundamental əsərində ilk dəfə olaraq "ərəb dilçiliyinin Azərbaycan məktəbi" ifadəsini işlətmiş və Azərbaycanda dilçilik ənənəsinin çoxəsrlik tarixə malik olduğunu sübut etmişdir.

Görkəmli şərqşünas alim Azərbaycanda islam dininin elmi əsaslarla öyrənilməsinin təbliği məsələsinin ilk təşəbbüskarlarındandır.

Respublikamızda islamla bağlı mövhumat xarakterli ədəbiyyatın yayılmasının qarşısını almaq üçün Qafqaz Müsəlmanları İdarəsinin nəzdində Elmi-Dini Şuranın yaradılması çox önəmli hadisə idi. Təsadüfi deyil ki, belə bir mötəbər şuraya məhz Vasim müəllim başçılıq edirdi.

1991-ci ildə müqəddəs kitabımız Qurani-Kərim mərhum akademik Ziya Bünyadov və akademik Vasim Məmmədəliyev tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir. Bu, ölkənin elmi-mədəni həyatında mühüm hadisə idi. Tərcümənin nəşri ölkəmizdə islama, bu dinin tarixinə, fəlsəfəsinə və mədəniyyətinə dair araşdırmalara güclü təkan verdi və Quranın dəqiq məzmunu barədə təsəvvür əldə etməyə imkan yaratdı.

Vasim müəllim mərhum akademik Ziya Bünyadovla birgə bu məsuliyyətli işin öhdəsindən şərəflə gəlmiş və Azərbaycan oxucusuna Allah kəlamını ən yüksək səviyyədə çatdıra bilmişdir.

Vasim müəllimin ərəb, fars, türk və bir sıra digər dilləri gözəl bilməsi, Şərq mədəniyyətinin nümunələri ilə yaxından tanış olması, İslam dünyasının böyük alimlərinin, mütəfəkkirlərinin, ədib və şairlərinin əsərlərini dərindən mənimsəməsi onun universal ensiklopedist alim kimi formalaşmağında mühüm rol oynamışdır.

Ərəb və fars dillərini mükəmməl bilməsi ona klassik şərq poeziyasının, xüsusilə Azərbaycan klassiklərinin poetik irsinin gözəl bilicisi kimi şöhrət gətirmişdir. Onun təsəvvüf və irfanla bağlı fikirləri Şərq xalqlarının ədəbiyyatındakı mühüm problemlərin öyrənilməsini xeyli asanlaşdırır. Alimin Yaxın və Orta Şərqin korifeylərinin əsərlərini təhlil edən fikir və mülahizələri bir çox mübahisəli məqamlara aydınlıq gətirmişdir. Əruz vəznini mükəmməl bilən V.Məmmədəliyev Azərbaycan divan ədəbiyyatının bir çox nümayəndələrinin əsərlərini səlis şəkildə şərh etmişdir.

Vasim müəllim Azərbaycan musiqi mədəniyyətinin, muğam sənətinin mahir bilicisi idi.

Vasim müəllim AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu ilə sıx elmi əməkdaşlıq edirdi. İnstitutun Dissertasiya Şurasının təşkil etdiyi müdafiələrdə böyük məmnuniyyətlə iştirak edən hörmətli akademik gənc alimlərin hazırlanmasında öz qüvvə və potensialını heç vaxt əsirgəmirdi.

İnanırıq ki, mərhum akademik Vasim Məmmədəliyevin əziz xatirəsi daim yaşayacaq, bütün xalqımız, o cümlədən elmi ictimaiyyət tərəfindən daim uca tutulacaqdır.

Allah rəhmət eləsin!

*Gövhər Baxşəliyeva*